*UOT 159.9.*

***Afaq Qulu qızı Alıyeva***
*Bakı şəhəri Nərimanov rayonu*
*Evrika özəl tam orta ümumtəhsil məktəbinin baş psixoloqu*
*https://orcid.org/0009-0000-4416-2560*
*E-mail:afaaliyeva83@gmail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(3).218-224*

# TƏHSİL MÜHİTİNDƏ ÖYRƏNMƏ MANEƏLƏRİ: DİQQƏT ƏSKİKLİYİ VƏ HİPERAKTİVLİK POZUNTUSU OLAN ŞAGİRDLƏRİN AKADEMİK UĞURSUZLUQ SƏBƏBLƏRİ VƏ ONLARIN ARADAN QALDIRILMA YOLLARI

***Afag Gulu Aliyeva***
*senior psychologist of the private comprehensive school*
*"Eureka" of the Narimanov district of Baku*

# BARRIERS TO LEARNING IN THE EDUCATIONAL ENVIRONMENT: CAUSES OF ACADEMIC FAILURE OF STUDENTS WITH ATTENTION DEFICIT AND HYPERACTIVITY DISORDER AND WAYS TO ELIMINATE THEM

***Афаг Гулу гызы Алиева***
*старший психолог частной общеобразовательной школы*
*«Эврика» Наримановского района, города Баку*

# УЧЕБНЫЕ БАРЬЕРЫ В ОБРАЗОВАТЕЛЬНОЙ СРЕДЕ: ПРИЧИНЫ УЧЕБНОЙ НЕУСПЕШНОСТИ УЧАЩИХСЯ С ДЕФИЦИТОМ ВНИМАНИЯ И ГИПЕРАКТИВНОСТЬЮ И ПУТИ ИХ УСТРАНЕНИЯ

**Xülasə.** Müasir dövrdə təhsil sistemi yalnız akademik biliklərin ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda şagirdlərin sosial, emosional və psixoloji inkişafını da dəstəkləməyi hədəfləyir. Bildiyimiz kimi müasir dövrdə, ekoloji problemlər, zərərli vərdişlər və irsi amillərlə bağlı bəzi uşaqlar fiziki qüsurlarla dünyaya gəlir və ya belə hallar sonradan baş verir. Belə uşaqlarla keyfiyyətli təlim prosesini həyata keçirmək mümkün olmur. Lakin təhsil mühitində mövcud olan öyrənmə maneələri bu məqsədlərə çatmağa mane olur. Öyrənmə maneələri şagirdlərin təlim nəticələrinə, motivasiyasına və ümumi psixoloji sağlamlığına mənfi təsir edir.
***Açar sözlər:*** *təhsil mühiti, öyrənmə maneələri, diqqət əskikliyi, hiperaktivlik pozuntusu, şagirdlər, akademik uğursuzluq*

**Abstract.** In modern times, the education system is not limited to the transfer of academic knowledge only, but also aims to support the social, emotional and psychological development of students. As we know, in modern times, due to environmental problems, harmful habits and hereditary factors, some children are born with physical disabilities or such cases occur later. It is not possible to implement a quality learning process with such children. However, the learning barriers existing in the educational environment prevent the achievement of these goals. Learning barriers negatively affect the learning outcomes, motivation and general psychological health of students.
***Keywords:*** *educational environment, learning barriers, attention deficit hyperactivity disorder, students, academic failure*

**Аннотация.** В современный период система образования не ограничивается передачей академических знаний, но также направлена на поддержку социального, эмоционального и психологического развития учащихся. Как известно, в наше время из-за проблем окружающей среды, вредных привычек и наследственных факторов некоторые дети рождаются с физическими дефектами или такие случаи возникают позже. С такими детьми невозможно осуществлять качественный образовательный процесс. Однако учебные барьеры, существующие в образовательной среде, мешают дости-

жению этих целей. Нарушение обучаемости отрицательно влияет на результаты обучения, мотивацию и общее психологическое здоровье учащихся.

***Ключевые слова:*** *образовательная среда, нарушения обучаемости, синдром дефицита внимания и гиперактивности, учащиеся, академическая неудача*

Müasir təhsil yanaşmalarının dəyişməsi: XXI əsr bacarıqlarının inkişafı üçün yalnız faktların öyrənilməsi kifayət deyildir. Kritik düşüncə, problem həll etmə və emosional intellektin inkişafı ön plana çıxır. Öyrənmə maneələri isə bu bacarıqların formalaşmasına mane olur.

Məktəbdə müxtəlif sosial-iqtisadi vəziyyətdə olan müxtəlif mədəniyyətə və fərqli öyrənmə tərzinə malik olan ailələrin uşaqları təhsil alır. Hər bir şagirdin fərdi ehtiyaclarına cavab vermək üçün öyrənmə maneələrinin dərk edilməsi və aradan qaldırılması vacibdir.

Rəqəmsal texnologiyaların tədrisdə istifadəsi yeni imkanlar yaratmaqla yanaşı, bəzi şagirdlərdə diqqətin yayılması və texnologiya asılılığı kimi yeni maneələr də ortaya çıxarır. Öyrənmə maneələrinin aradan qaldırılması, şagirdlərin akademik göstəricilərini yaxşılaşdırmağa və daha effektiv öyrənmə mühiti yaratmağa kömək edir. Maneələrin erkən aşkarlanması və həlli şagirdlərin stress və narahatlıq səviyyələrini azaldır, onların motivasiyasını və məktəbə bağlılığını artırır.

Hər bir şagirdin fərdi potensialını maksimum dərəcədə yaxşılaşdırmaq üçün təhsil mühitində bərabər imkanlar yaratmaq vacibdir. Bunun üçün maneələri tanımaq və inklüziv tədris metodlarını tətbiq etmək lazımdır. Öyrənmə maneələrini müəyyən etmək, anlamaq və onlarla mübarizə aparmaq müəllimlərin pedaqoji bacarıqlarını inkişaf etdirir və onların iş yükünü azaldır.

Son illərdə DƏHP (Diqqət Əskikliyi və Hiperaktivlik Pozuntusu) diaqnozu olan şagirdlərin sayı artmaqdadır. Tədqiqatlar göstərir ki, məktəb yaşlı uşaqların təxminən 5-10%-ində DƏHP əlamətləri müşahidə olunur. Bu vəziyyət təhsil müəssisələrində daha çox şagirdin xüsusi ehtiyaclarının nəzərə alınmasını tələb edir.

**Akademik uğursuzluq riski:** DƏHP-u olan şagirdlər, diqqətin yayınması, impulsivlik və hiperaktivlik səbəbindən dərs prosesində çətinlik çəkirlər. Bu isə onların akademik göstəricilərinin aşağı olmasına, məktəbdən uzaqlaşmalarına və ciddi davranış pozuntularına səbəb ola bilər.

DƏHP hələ də bəzi cəmiyyətlərdə düzgün başa düşülmür və bu vəziyyətdə olan uşaqlar yanlışlıqla "tənbəl" və ya "problemli" kimi qiymətləndirilə bilər. Bu isə onların sosial və emosional inkişafına mənfi təsir göstərir. DƏHP-u olan şagirdlərin öyrənmə çətinliklərini və maneələrini anlamaqla, onların akademik göstəricilərini yaxşılaşdırmaq mümkündür. Bu isə onların özünəinamını artırır və təhsil həyatında daha uğurlu olmalarına şərait yaradır. DƏHP-u olan şagirdlər üçün uyğun tədris metodlarının tətbiqi, təhsil müəssisələrində inklüziv mühitin yaradılmasına töhfə verir. Bu isə hər bir şagirdin fərdi ehtiyaclarına cavab verən bərabər təhsil imkanlarının təmin edilməsinə kömək edir.

**Müəllimlərin və valideynlərin maarifləndirilməsi:** DƏHP haqqında məlumatlılığın artırılmaqla müəllimlərə və valideynlərə daha effektiv dəstək göstərmək lazımdır. Bununla, şagirdlərin öyrənmə potensiallarını maksimum dərəcədə inkişaf etdirmək mümkün olur. DƏHP olan şagirdlər vaxtında və düzgün dəstək almadıqda, yetkinlik dövründə davranış problemləri, aşağı özünəinam, sosial uyğunlaşma və s. kimi müxtəlif çətinliklər ilə üzləşə bilərlər. Təhsil mühitində öyrənmə maneələrinin vaxtında aradan qaldırılması onların sosial həyatda da uğurlu olmalarına şərait yaradır.

Təhsil mühitində öyrənmə maneələrindən biri olan DƏHP (Diqqət Əskikliyi və Hiperaktivlik Pozuntusu) şagirdlərin akademik uğursuzluq səbəblərindən biridir. DƏHP diaqnozu olan şagirdlərin təhsil prosesində qarşılaşdığı spesifik çətinlikləri müəyyənləşdirmək və bu maneələrin onların akademik bacarıqlarına necə təsir etdiyini təhlil etmək məqsədini daşıyır. Bununla yanaşı, bu çətinliklərin aradan qaldırılması üçün effektiv strategiyaların təklif edilməsi də əsas məqsədlərdən biridir.

**Təhsil mühitində mövcud olan öyrənmə maneələri, DƏHP-u olan şagirdlərin akademik göstəricilərinə necə təsir edir?**

DƏHP (Diqqət Əskikliyi və Hiperaktivlik Pozuntusu) olan şagirdlər öyrənmə prosesində çətinliklərlə üzləşirlər və təhsil mühitindəki müəyyən maneələr onların akademik uğurlarına və emosional vəziyyətinə daha çox təsir göstərə bilər. Bu təsirləri bir neçə əsas kateqoriyada nəzərdən keçirmək olar:

➢ **Sinif otağının dizaynı:** Dar, havasız və sıx sinif otaqları diqqəti daha çox yayındırır. DƏHP – u olan şagirdlər belə mühitlərdə diqqəti toplamaqda daha çox çətinlik çəkirlər.

➢ **Səs-küy və diqqət dağıdan amillər:** Həddindən artıq səs-küy və vizual stimullar onların diqqətini asanlıqla belə şagirdləri yayındırır və təlim prosesində fokuslanmalarını çətinləşdirir.

➢ **Tədris metodları və kurikulumla bağlı maneələr**: Uzun müddət monoton şəkildə keçirilən dərslər, mühazirələr və mətn əsaslı öyrənmə DƏHP-u olan şagirdlər üçün sıxıcı və çətin olur, çünki onlar daha çox aktiv və praktik öyrənmə metodlarına ehtiyac duyurlar. DƏHP-u olan şagirdlər tez-tez dərs mövzularını anlamaqda çətinlik çəkirlər. Onlar daha qısa, konkret və dinamik tapşırıqlara ehtiyac duyurlar.

➢ **Sinifdaxili münasibətlər:** DƏHP-u olan şagirdlər impulsiv davranışlarına görə sinif yoldaşları tərəfindən yanlış başa düşülə və sosial təcrid edilə bilərlər. Bu isə onların emosional vəziyyətinə və məktəbə olan bağlılığına mənfi təsir göstərə bilər. Müəllimlərin DƏHP haqqında məlumatlılığı aşağı olduqda, bu uşaqları "tənbəl" və ya "nizam-intizamsız" kimi dəyərləndirə bilərlər. Bu isə onların özünəinamını və motivasiyasını azaldır.

➢ **Qiymətləndirmə və gözləntilərlə bağlı maneələr:** DƏHP-u olan şagirdlər üçün standart testlər və uzunmüddətli yazılı tapşırıqlar çətinlik yarada bilər, çünki diqqəti uzun müddət cəmləməkdə çətinlik çəkirlər. Müəllimlər və valideynlər tərəfindən gözləntilərin yüksək olması, bu şagirdlərdə stress və narahatlığa səbəb olur ki, bu da onların performansını daha da aşağı salır.

➢ **Motivasiya və davranışla bağlı maneələr:** Əgər tədris mövzusu onlara maraqsız görünürsə, diqqətləri tez yayına bilər və tapşırıqları yerinə yetirməkdə motivasiya çatışmazlığı yarana bilər.

Təhsil mühitindəki bu öyrənmə maneələri belə şagirdlərin akademik uğurlarına ciddi təsir göstərir. Bununla yanaşı, onların emosional vəziyyətinə və sosial münasibətlərinə də mənfi təsir edir. Bu səbəbdən, tədris prosesinin bu şagirdlərin ehtiyaclarına uyğunlaşdırılması və inklüziv təhsil mühitinin yaradılması vacibdir.

**DƏHP diaqnozu olan şagirdlərin ən çox qarşılaşdıqları öyrənmə maneələri.**

DƏHP (Diqqət Əskikliyi və Hiperaktivlik Pozuntusu) diaqnozu olan uşaqlar təhsil mühitində müxtəlif öyrənmə maneələri ilə qarşılaşırlar. Bu maneələr, onların akademik uğurlarını, sosial münasibətlərinə və ümumi həyat keyfiyyətlərinə mənfi təsir edə bilər. DƏHP-u olan uşaqların ən çox qarşılaşdığı maneələrdən aşağıdakıları qeyd etmək olar:

**Diqqətin yayınması:** DƏHP-u olan uşaqlar ən çox diqqətlərini cəmləməkdə çətinlik çəkirlər. Sinifdəki səs-küy, hərəkət onların diqqətini asanlıqla yayındıra bilər. Onlar uzun müddət bir tapşırığa və ya dərsə fokuslanmaqda çətinlik çəkir, bu da dərsləri başa çatdırmaq və tapşırıqları yerinə yetirməkdə problemlərə səbəb olur.

**İmpulsivlik:** Belə uşaqlar tez-tez impulsiv qərarlar qəbul edirlər, yəni bir düşüncəni və ya nəticəni nəzərə almadan hərəkət edirlər. Dərs zamanı qeyri-adi hərəkətlər, yerində durmamaq və tez-tez söz kəsmək onların davranışlarını çətinləşdirir və sinifdə nizamı pozur. İmpulsivlik səbəbindən bəzən digər uşaqlarla mübahisələr və ya münaqişələr yarana bilər.

**Motivasiya çatışmazlığı:** DƏHP-u olan uşaqlar dərsə qarşı maraq və motivasiya tapmaqda çətinlik çəkirlər. Özlərinə güvənməyin az olması və öyrənməyə qarşı ümumi maraqsızlıq onların uğur səviyyəsini aşağı sala bilər. Onlar qısa müddətə uyğunlaşa bilərlər, amma uzun müddətə davamlı diqqət və enerji tələb edən tapşırıqlarda çətinlik yaşayırlar.

**Sosial münasibətlərdə çətinliklər:** İmpulsivlik və hiperaktivlik səbəbindən DƏHP-u olan uşaqlar digər şagirdlərlə sosial münasibətlər qurmaqda çətinlik çəkirlər. Onlar tez-tez başqalarının sözünü kəsib danışır və ya davranışları ilə sinif yoldaşlarını narahat edirlər, bu da sosial təcridə və ya qrupdan uzaqlaşmağa səbəb ola bilər. Uzun müddət diqqətini bir mövzuya cəmləməkdə çətinlik çəkdikləri üçün dərslərdə və qrup işlərində digər uşaqlarla uyğunlaşmaqda da çətinliklərlə üzləşirlər.

**Özünü idarə etmə bacarıqlarının çatışmazlığı:** Belə uşaqların özünü idarə etmə bacarıqları zəif ola bilər. Bu, onların vaxtını idarə etməkdə, planlaşdırma və təşkilatçılıq işlərində çətinlik çəkmələrinə səbəb olur. Müəyyən tapşırıqları tamamlamadan başqa birinə başlamaq, dərs planına riayət etməmək kimi problemlər yaranır. Bu özünü idarə etmə çətinlikləri, həmçinin şagirdlərin emosional reaksiya və davranışlarını tənzimləmələrini çətinləşdirir.

**Akademik performansın aşağı olması:** Diqqət çatışmazlığı, impulsivlik və hiperaktivlik kimi çətinliklər, DƏHP-u olan uşaqların məktəb tapşırıqlarını yerinə yetirməkdə və imtahanlarda uğur qazanmaqda çətinlik çəkmələrinə səbəb olur. Uzunmüddətli layihələr və yazılı tapşırıqlar çox zaman yarımçıq qalır və bu da onların ümumi akademik performansına mənfi təsir göstərir.

**Vaxtı düzgün idarəetmə bacarıqları:** DƏHP-u olan uşaqların vaxtlarını düzgün idarə etməsi çətindir. Bu da şagirdlərin dərsə hazırlığı və digər gündəlik tapşırıqları vaxtında yerinə yetirməməyə səbəb ola bilər. DƏHP-u olan uşaqların qarşılaşdığı maneələr onların məktəb həyatını, sosial inkişafını və özünə inamını əhəmiyyətli dərəcədə təsir edir. Təhsil mühitində belə uşaqların ehtiyaclarına uyğun müdaxilələr və dəstək strategiyaları, onların öyrənmə qabiliyyətlərini yaxşılaşdırmağa və sosial inteqrasiya etmələrinə kömək edə bilər.

**Müəllimlərin tədris metodları və sinif idarəetmə yanaşmaları**

**DƏHP-u olan şagirdlərin öyrənmə çətinliklərinə nə dərəcədə təsir göstərir?**

Müəllimlərin tədris metodları və sinif idarəetmə yanaşmaları DƏHP-u (Diqqət Əskikliyi və Hiperaktivlik Pozuntusu) olan şagirdlərin öyrənmə çətinliklərinə birbaşa təsir göstərir. Bu təsir həm müsbət, həm də mənfi ola bilər, amma əsasən müəllimin yanaşmalarının belə şagirdlərin ehtiyaclarına uyğunlaşdırılması, onların akademik uğurlarını və sosial adaptasiyalarını müsbət yöndə inkişaf etdirə bilər. DƏHP-u olan şagirdlərin ehtiyaclarını nəzərə alan fərdi yanaşmalar onların öyrənmə çətinliklərini azalda bilər. Məsələn, müəllimlər şagirdin diqqətini cəmləməkdə çətinlik çəkdiyi zaman dərsə daha interaktiv, praktiki və vizual öyrənmə metodları tətbiq edə bilərlər.

DƏHP-u olan şagirdlər uzun müddət bir mövzuya diqqətini cəmləməkdə çətinlik çəkirlər, buna görə də dərs müddətinin qısa və məzmunun maraqlı şəkildə təqdim edilməsi effektiv ola bilər. Yalnız, yazılı tapşırıqların yerinə yetirilməsi, şagirdlərin zəkalarını daha aktiv şəkildə işə salmalarını təmin edəcək oyunlar və fəaliyyətlər dərs materialının mənimsənilməsini asanlaşdırır.

Qətiyyətli və ədalətli sinif qaydaları ilə sinifdə düzgün idarəetmə tətbiq edildikdə, DƏHP-u olan şagirdlər üçün daha uyğun bir mühit yaranır. Müəllimlər, davranışları idarə etmək və diqqət dağınıqlığını minimuma endirmək üçün sadə və aydın qaydalar qoymalıdırlar. Qarışıq və çoxsaylı təlimatların verilməsi DƏHP-u olan şagirdlərdə daha çox çaşqınlığa səbəb ola bilər. Buna görə, müəllimlər təlimatları sadə və mərhələli şəkildə verməli, hər bir tapşırıqdan sonra şagirdlərdən nə başa düşdüklərini soruşmalıdırlar.

Pozitiv gücləndirmə (məsələn, müsbət davranışların və uğurların mükafatlandırılması) DƏHP-u olan şagirdlər üçün çox təsirli ola bilər. Bu, onların özünəinamını artırır və müsbət davranışları təşviq edir. Kiçik, amma mütəmadi mükafatlar (verbal təriflər, əlavə vaxt, xüsusi fəaliyyətlər) şagirdin davamlı motivasiyasını təmin edə bilər.

Kiçik qrup fəaliyyətləri daha çox DƏHP-u olan şagirdlərə özlərini sosial olaraq ifadə etməyə və həmyaşıdları ilə qarşılıqlı əlaqə qurmağa imkan yaradır. Bu, onların sosial bacarıqlarını inkişaf etdirə və sinifdəki münasibətlərini yaxşılaşdırmağa kömək edə bilər. Sinifdəki böyük qruplarda isə, impulsiv və hiperaktiv davranışlar digər uşaqların narahat olmasına səbəb ola bilər, buna görə qrup işləri kiçik olmalıdır.

Təlim prosesində düzgün əks əlaqə yaratmaq DƏHP-u olan şagirdlərin davranışlarını istiqamətləndirmələrinə və düzəlişlər etmələrinə kömək edir. Bu zaman, uşaqlar hansı sahələrdə inkişaf etməli olduqlarını anlamağa və gələcəkdə eyni səhvləri təkrarlamamağa çalışırlar. Müəllimlərin belə şagirdlərə ehtiyaclarına uyğun fərdi və ya qrup şəkildə əlavə dəstək verməsi onların öyrənmə çətinliklərini aradan qaldıra bilər.

Özünütənzimləmə bacarıqlarını inkişaf etdirmək üçün müəllimlər şagirdlərə davranışlarını və emosiyalarını idarə etməkdə köməklik göstərməlidirlər. Bu, onları daha səbirli və diqqətli olmağa kömək edir. Məsələn, diqqətləri yayındığı zaman müvafiq təlimatlar verilməli və davranışlar idarə edilməlidir. İmpulsiv davranışları idarə etməyə yönəlmiş praktikalar (məsələn, nəfəs alma texnikaları) sinifdəki nizam-intizamı qorumağa və şagirdin özünü rahat hiss etməsinə kömək edir.

Daha sakit və nizamlı dərs mühiti DƏHP-u olan şagirdlərin diqqətini daha asan cəmləməsinə kömək edir. Müəllimlər sinif otağını, təhsil vasitələrini və ya dərs təchizatını şagirdlərin diqqətini yayındırmayacaq şəkildə təşkil etməlidirlər.

Müəllimlərin tədris metodları və sinif idarəetmə yanaşmaları DƏHP-u olan şagirdlərin öyrənmə çətinliklərini aradan qaldırmaqda bö-

yük rol oynayır. Fərdiləşdirilmiş və interaktiv tədris yanaşmaları, uyğun sinif idarəetmə üsulları və davamlı dəstək göstərilməsi bu şagirdlərin təhsil həyatını yaxşılaşdırmağa və onların akademik performansını yüksəltməyə kömək edir. Müəllimlərin bu yanaşmaları tətbiq etmələri, həmçinin DƏHP-u olan şagirdlər üçün inklüziv bir təhsil mühiti yaratmağa və onların sosial inkişafını dəstəkləməyə şərait yaradır.

**Fərdiləşdirilmiş tədris yanaşmaları:** DƏHP-u olan şagirdlərin ehtiyaclarını nəzərə alan fərdi yanaşmalar onların öyrənmə çətinliklərini azalda bilər. Məsələn, müəllimlər şagirdin diqqətini cəmləməkdə çətinlik çəkdiyi zaman dərsə daha interaktiv, praktiki və vizual öyrənmə metodları tətbiq edə bilərlər.

**Qısa və dinamik dərs mövzuları:** DƏHP-u olan şagirdlər uzun müddət bir mövzuya diqqətini cəmləməkdə çətinlik çəkirlər, buna görə də dərs müddətinin qısa və məzmunun maraqlı şəkildə təqdim edilməsi effektiv ola bilər. Yalnızca yazılı tapşırıqların yerinə, şagirdlərin ağıllarını daha aktiv şəkildə işə salmalarını təmin edəcək oyunlar və fəaliyyətlər dərs materialının mənimsənilməsini asanlaşdırır.

**Sinfin idarəolunması və nizam-intizam:** Qətiyyətli və aydın sinif qaydaları ilə sinifdə düzgün idarəetmə tətbiq edildikdə, DƏHP -u olan şagirdlər üçün daha aydın bir mühit yaranır. Müəllimlər, davranışları idarə etmək və diqqət dağınıqlığını minimuma endirmək üçün sadə və aydın qaydalar qurmalıdırlar. Qarışıq, çoxsaylı təlimatların verilməsi DƏHP-u olan şagirdlərdə daha çox çaşqınlığa səbəb ola bilər. Buna görə, müəllimlər təlimatları sadə və mərhələli şəkildə verməli, hər bir tapşırıqdan sonra şagirdlərdən nə başa düşdüklərini soruşmalıdırlar.

**Mükafatlandırma sistemi:** Pozitiv gücləndirmə (məsələn, müsbət davranışların və uğurların mükafatlandırılması) DƏHP-u olan şagirdlər üçün çox təsirli ola bilər. Bu, onların özünəinamını artırır və müsbət davranışlara təşviq edir. Kiçik, amma mütəmadi mükafatlar (verbal təriflər, əlavə vaxt, xüsusi fəaliyyətlər) şagirdin davamlı motivasiyasını təmin edə bilər.

**Qrup işləri və sosial inkişaf:** Kiçik qrup fəaliyyətləri DƏHP-u olan şagirdlərə daha çox imkan yaradır ki, özlərini sosial olaraq ifadə etsinlər və həmyaşıdları ilə qarşılıqlı əlaqə qursunlar. Bu, onların sosial bacarıqlarını inkişaf etdirə və sinifdəki münasibətlərini yaxşılaşdırmağa kömək edə bilər. Sinifdəki böyük qruplarda isə, impulsiv və hiperaktiv davranışlar digər uşaqların narahat olmasına səbəb ola bilər, buna görə qrup işləri kiçik və nəzarət edilə bilən olmalıdır. Təlimlərdə dərhal geri bildirim vermək, DƏHP-u olan şagirdlərin özlərini istiqamətləndirmələrinə və düzəlişlər etmələrinə kömək edir. Bu uşaqlar təlimdən sonra geri bildirim aldıqları zaman, hansı sahələrdə inkişaf etməli olduqlarını anlamağa və gələcəkdə eyni səhvləri təkrarlamamağa çalışırlar.

Müəllimlərin DƏHP-u olan şagirdlərə ehtiyaclarına uyğun fərdi və ya qrup şəkildə əlavə dərs dəstəyi verməsi onların öyrənmə çətinliklərini yüngülləşdirə bilər.

**Özünütənzimləmə və davranış inkişafı:** Özünütənzimləmə bacarıqlarını inkişaf etdirmək üçün müəllimlər şagirdlərə davranışlarını və emosiyalarını idarə etməkdə kömək etməlidirlər. Bu, onları daha səbirli və diqqətli etməyə imkan verir. Məsələn, diqqətləri yayındığı zaman müvafiq təlimatlar verilməli və davranışlar idarə edilməlidir. İmpulsiv davranışları idarə etməyə yönəlmiş praktikalar (məsələn, nəfəs alma məşqləri) sinifdəki nizamı qorumağa və şagirdin özünü rahat hiss etməsinə kömək edir.

**Dərs mühitinin təmin edilməsi:** Daha sakit və nizamlı dərs mühiti DƏHP-u olan şagirdlərin diqqətini daha asan cəmləməsinə kömək edir. Müəllimlər sinif otağını, təhsil vasitələrini və ya dərs təchizatını şagirdlərin diqqətini yayındırmayacaq şəkildə təşkil etməlidirlər. Müəllimlərin tədris metodları və sinif idarəetmə yanaşmaları DƏHP -u olan şagirdlərin öyrənmə çətinliklərini aradan qaldırmaqda böyük rol oynayır. Fərdiləşdirilmiş və interaktiv tədris yanaşmaları, uyğun sinif idarəetmə üsulları və davamlı dəstək göstərilməsi bu şagirdlərin təhsil həyatını yaxşılaşdırmağa və onların akademik performansını yüksəltməyə kömək edir. Müəllimlərin bu yanaşmaları tətbiq etmələri, həmçinin DƏHP-u olan şagirdlər üçün inklüziv bir təhsil mühiti yaratmağa və onların sosial inkişafını dəstəkləməyə şərait yaradır.

**Valideynlərin və müəllimlərin məlumatlılıq səviyyəsi və dəstək yanaşmaları DƏHP olan şagirdlərin akademik uğurlarına təsiri.**

Valideynlərin və müəllimlərin diqqət əskikliyi və hiperaktivlik pozuntusu haqqında məlumatlılığı və onlara dəstək yanaşmaları, bu şagirdlərin akademik uğurlarına və sosial inkişafı-

na əhəmiyyətli dərəcədə təsir göstərir. Valideynlər və müəllimlər DƏHP-nun əlamətlərini erkən tanıdıqda, şagirdlər üçün vaxtında və düzgün müdaxilə tədbirləri görülə bilir. Erkən müdaxilə, şagirdlərin diqqət və özünü tənzimləmə bacarıqlarının inkişafında mühüm rol oynayır.

**İnklüziv təhsil mühitinin yaradılması:** Məlumatlı müəllimlər, DƏHP-u olan şagirdlərin xüsusi ehtiyaclarına uyğunlaşaraq, fərdiləşdirilmiş və interaktiv tədris metodlarını tətbiq edirlər. Həm valideynlər, həm də müəllimlər DƏHP ilə bağlı məlumatlı olduqda, əlavə dəstək proqramlarından (psixoloji, pedaqoji və davranışsal dəstək) yararlana bilirlər. Bu resurslar şagirdlərin akademik performansını artırmağa və öyrənmə çətinliklərini azaltmağa kömək olur. Məlumatlı valideynlər və müəllimlər arasında sıx əlaqə və davamlı geri bildirim şagirdlərin inkişafını izləmək və lazımi dəyişiklikləri həyata keçirmək üçün vacibdir. Bu, DƏHP-u olan şagirdlərin təhsil prosesində qarşılaşdıqları problemlərin daha effektiv həllinə səbəb olur.

**DƏHP-u uşaqların uğursuzluqlarının aradan qaldırılmasına aid bir neçə nəzəriyyə var:**

**1) Bilişsel nəzəriyyə-** Öyrənmə prosesində informasiyanın işlənməsi, yaddaş və diqqət kimi koqnitiv funksiyaların rolunu vurğulayır. DƏHP-u diaqnozu olan şagirdlərdə qısa müddətli yaddaşın zəifləməsi, diqqətin səmərəli şəkildə cəmlənməməsi və məlumatların emalında çətinliklər müşahidə olunur. Bu nəzəri çərçivə, şagirdlərin dərs materialını mənimsəmə prosesində yaranan problemlərin, onların koqnitiv resurslarının məhdudluğundan qaynaqlandığını irəli sürür. Belə ki, bu problemlərin aradan qaldırılması üçün tədris metodlarının interaktiv, vizual və qısa müddətli təqdimatlarla dəstəklənməsi tövsiyə edilir.

2) **Davranışsal nəzəriyyə.** Öyrənmədə ətraf mühit faktorlarının və mükafatlandırma sistemlərinin şagird davranışlarına təsirini izah edir. DƏHP-u olan uşaqların impulsivlik və hiperaktivlik kimi xüsusiyyətləri, onların sinif içi davranışlarında nizamsızlığa səbəb olur. Bu nəzəriyyəyə görə, müsbət gücləndirmə, davranış terapiyası və strukturlaşdırılmış sinif idarəetməsi kimi strategiyalar vasitəsilə, şagirdlərin davranışlarının və öyrənmə prosesinin tənzimlənməsi mümkündür. Bu yanaşma, həm müəllimlərin, həm də valideynlərin şagirdlərlə qurduğu əlaqənin, onların akademik və sosial inkişafına müsbət təsir etdiyini göstərir.

3) **Ekoloji sistemlər nəzəriyyəsi.** Bronfenbrennerin ekoloji sistemlər nəzəriyyəsi, uşağın inkişafını birbaşa və dolayı şəkildə təsir edən fərqli mühitlər – ailə, məktəb, sinif və cəmiyyət – arasında qarşılıqlı əlaqə kimi izah edir. DƏHP-u olan şagirdlərin akademik performansını və sosial adaptasiyasını formalaşdıran təkcə fərdi xüsusiyyətlər deyil, həm də onların təhsil mühitindəki dəstək sistemləri və ailə şəraiti mühüm rol oynayır. Bu nəzəriyyə, inklüziv təhsil mühitlərinin və koordinasiyalı müdaxilə proqramlarının əhəmiyyətini vurğulayır.

4) **İcra funksiyaları nəzəriyyəsi-** İcra funksiyaları nəzəriyyəsi, planlaşdırma, təşkilatçılıq, diqqəti cəmləmə və özünü tənzimləmə kimi yüksək səviyyəli koqnitiv proseslərin pozulmasının öyrənmə çətinliklərində necə rol oynadığını araşdırır. DƏHP-u olan şagirdlərdə bu funksiyaların zəifləməsi, onların tapşırıqları vaxtında və səmərəli şəkildə yerinə yetirməsinə mane olur. Müvafiq müdaxilə metodları, məsələn, xüsusi təlim proqramları və davranış müdaxilələri, bu funksiyaların inkişaf etdirilməsinə yönəldikdə, akademik uğurun artırılmasına kömək edir.

**Yaş və cins fərqlilikləri:** DƏHP-u daha çox oğlan uşaqlarında müşahidə olunur və erkən yaşlarda diaqnoz qoyulması, müdaxilənin effektivliyini artırır. Belə şagirdlər, diqqət, yaddaş və icra funksiyalarında yaşadıqları çətinliklər səbəbindən, normal inkişaf göstərən həmyaşıdları ilə müqayisədə akademik nailiyyətlərdə orta hesabla 20-30% aşağı göstəricilər sərgiləyə bilirlər. Meta-analizlər və uzunmüddətli tədqiqatlar göstərir ki, fərdi müdaxilə proqramları və erkən dəstək DƏHP-u olan şagirdlərin akademik performansını əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilir.

**Erkən müdaxilə:** DƏHP-nin erkən diaqnozu və dərhal fərdiləşdirilmiş tədris müdaxiləsi, şagirdlərin akademik və sosial inkişafında mühüm rol oynayır.

**Elmi ədəbiyyatda əsas nəzəri çərçivələr** – bilişsel, davranışsal, ekoloji sistemlər və icra funksiyaları nəzəriyyələri – DƏHP-u olan şagirdlərin öyrənmə çətinliklərini və akademik performansını izah etmək üçün geniş istifadə olunur. Statistik məlumatlar isə bu problemlərin qlobal səviyyədə yayılmış olduğunu və müvafiq müdaxilə proqramlarının şagirdlərin uğuruna müsbət təsir etdiyini göstərir

Təhsil mühitində öyrənmə maneələrinin aradan qaldırılması DƏHP-u diaqnozu olan şagirdlərin akademik performansına və sosial adaptasiyasına müsbət təsirini müxtəlif nəzəri çərçivələr və statistik məlumatlarla nail olmaq olar. Bilişsel və davranışsal nəzəriyyələr, DƏHP-u olan şagirdlərin diqqət, yaddaş və icra funksiyalarındakı məhdudiyyətləri açıqlayaraq, onların dərs materialını mənimsəməsində yaranan çətinlikləri vurğuladı. Ekoloji sistemlər nəzəriyyəsi isə, ailə, məktəb və cəmiyyət kimi amillərin qarşılıqlı təsirinin, şagirdlərin inkişafına necə təsir etdiyini göstərdi. Bundan əlavə, icra funksiyaları nəzəriyyəsi, DƏHP-u olan şagirdlərin planlaşdırma və özünü tənzimləmə bacarıqlarının zəifliyinə işarə edərək, müvafiq müdaxilə proqramlarının əhəmiyyətini ortaya qoydu.

Nəticə etibarilə, təhsil mühitində DƏHP-u olan şagirdlərin qarşılaşdıqları öyrənmə maneələrinin aradan qaldırılması üçün inklüziv və fərdiləşdirilmiş yanaşmaların tətbiqi zəruridir. Gələcək tədqiqatlar, bu müdaxilə strategiyalarının uzunmüddətli effektivliyini və şagirdlərin akademik uğurlarına təsirini daha da dərinləşdirilmiş şəkildə öyrənməyə yönəldilməlidir. Bu, həm təhsil sistemində, həm də cəmiyyət səviyyəsində DƏHP-u olan şagirdlərin potensial inkişafının maksimum dərəcədə reallaşdırılmasına şərait yaradacaqdır.

**Problemin aktuallığı**. Diqqət əskikliyi və hiperaktiv pozuntu (DƏHP), uşaqlıq dövründən etibarən şəxsin, diqqətini cəmləməkdə və hiperaktivlik kimi impulsiv hərəkətləri tənzimləməkdə çətinlik çəkdiyi neyroinkişaf pozuntularından biridir. DƏHP olan şəxslər diqqəti cəmləşdirməkdə və davranışları nəzarət altında saxlamaqda çətinlik çəkə bilər və həddindən artıq aktiv ola bilərlər. Konsentrasiya çətinlikləri və impulsivlik hiperaktivlik bu vəziyyətin əsas xüsusiyyətləridir. DƏHP olan şəxslər tək bir iş üzərində cəmləşməkdə və ya uzun müddət səssiz qalmaqda çətinlik çəkirlər. Bir çox insan müəyyən zamanlarda diqqətsizlik və dəyişkən enerji səviyyələri yaşasa da, DƏHP olan insanlarda vəziyyət daha tez-tez və daha ciddi şəkildə baş verir. Bu vəziyyət uşaqlarda daha çox görülsə də, böyüklərdə də rastlanan davranış pozuntusudur.

**Problemin elmi yeniliyi**. Uşaqlar diqqətsizlik səbəbindən verilən tapşırıqları yerinə yetirməkdə çətinlik çəkə bilərlər. Onların düşünmədən impulsiv hərəkətə meyli tələsik və potensial mənfi nəticələrə səbəb ola bilər. Hiperaktivlik həddindən artıq motor fəaliyyətini əhatə edir və uşaqlar, xüsusən də gənc insanlar hərəkətsiz oturmaqda çətinlik çəkə bilər. Ümumilikdə, DƏHP olan uşaqların təxminən 20-60%-də öyrənmə geriliyi ola bilər. Bununla belə, DƏHP olan hər bir uşaq diqqət çatışmazlığı və hərəkətlilik səbəbindən də öyrənmə çətinliyi ilə üzləşə bilər.

**Problemin praktik əhəmiyyəti.** DƏHP-in dəqiq səbəbi hələ tam müəyyən edilməsə də, genetikanın təsirli olduğu düşünülür. DƏHP diaqnozu qoyulmuş insanlar üzərində aparılan araşdırmalarda, dopamin səviyyələrinin aşağı olduğu və beynin, düşüncəni idarə edən bölgələrinin digər hissələrə nisbətən daha az aktiv olduğu müşahidə edilmişdir. Bundan əlavə, bu insanlarda beyindəki struktur fərqlər arasında boz maddənin həcminin azalması müəyyən edilmişdir. Boz maddə nitq, özünü idarə etmə, qərar vermə və əzələlərə nəzarət kimi funksiyalarda mühüm rol oynayır.

## Ədəbiyyat


1. İnklüziv təhsilin təşkili Qaydası. https://e-qanun.az/framework/53554
2. 2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı. https://eqanun.az/framework/37269
3. “Təhsil haqqında” Azərbaycan Respublikası Qanunu. Bakı. Hüquq ədəbiyyatı, 2009, 80 s.
4. Ümumi təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. www.e-qanun.az
5. Алёхина С.В. Принципы инклюзии в практике // Аутизм и нарушения развития. 2020. №1(40). С. 1-6.


**Redaksiyaya daxil olub:** 21.04.2025.